# Düşüncə əsilzadəliyi

## *XXI əsrin aforizmləri*



■ Rahid Ulusel

*Səkkizinci hissə*

Zaman tarix üçün - xronika, fəlsəfə üçün - taledir.

* * *

Ağac - calağından, fikir - çarpazından tutaşır.

* * *

İdeya - şamı yandıran kibrit çöpü.

* * *

Fikir qədər yaşamır heç bir canlı orqanizm.

* * *

Təfəkkür çox geniş fəzada nəfəs almalıdır.

* * *

Dəmir məntiq. O hansı temperaturda əriyir?

* * *

Bütün səhvlərdən təmizlənmiş məntiqi mumiyalamaqdan başqa çarə yox.

* * *

Mahiyyətlə təzahür eyni olsaydı, fəlsəfəyə ehtiyac qalmazdı.

* * *

Aforizmin müəllifi - özüdür: o yetişir və dərilir.

* * *

Təsadüf və zərurət bir-birinə qarışanda mahiyyəti olmayan hadisə baş verir.

* * *

Fikrimi dəyişirəm. Lakin bu o demək deyil ki, mən mövqeyimi dəyişirəm.

* * *

İntuisiya yeganə silahdır ki, ağlın əlində daha kəsərli olur.

* * *

İki ifratın tən ortası yetərincə sürüşkəndir.

* * *

Monoloqu kəsirsən, olur dialoq.

* * *

Beyin ekologiyası: seldən sunamiyə çevrilən informasiyadan qorunun!

* * *

Heç dil də öz qrammatikasına sığmır...

* * *

İşlətmədiyimiz sözlər dilimizdən küsür.

* * *

Polemika - özünə haqq qazandırmaq yox, həqiqəti aydınlaşdırmaq sənəti.

* * *

Fəlsəfə daşları: onları elə qalaqlanmış halda saxlayaq, yoxsa binasını tikək?!

* * *

"Hər kəsin öz həqiqəti" - deməli, burada ikisindən biri yoxdur: ya insan, ya həqiqət.

* * *

Ritorika alınmayanda, sualla nida arasında qalırsan.

* * *

Saflıq və mütəfəkkirlik - dahiliyin qaynağı.

* * *

Düşüncə və davranış arasında ən möhkəm, ən etibarlı ideya körpüsünü aforizm çəkir.

* * *

Nəinki Himalay-ideya, heç vadi-üslub da yalın xalqın yastılığında görünmür.

* * *

Getdikcə adamlar avam olmamağın daha yararlı vasitələrini qazanır, əvəzində ağıllı və müdrik olmağın minilliklər ərzində əldə edilmiş vasitələrini itirirlər.

* * *

İdeya qurtaranda fikir boşluqlarına, süxur aralıqlarına izah palçığı, şərh lehməsi dolur.

* * *

Dünyanı təəssüblə izah edən fəlsəfəni həmişə hansısa ideologiyanın xurcununda görürük.

* * *

Cənnət darvazaları yenidən üzümüzə açılacaq! - Axı, biz idrak ağacından imtina edirik!

* * *

Olanı sübut eləmək bəzən yalanı sübut etməkdən çətin olur...

* * *

İntuisiya, əsasən, rədd ediləndə doğru çıxır.

* * *

Həqiqətin sağlığına zəhər badəsini ilk dəfə Sokrat qaldırdı: içdi ki, insanlıq həqiqətin acı tamına öyrəşsin.

* * *

Aristoteldən aldığı dərslərdən Makedoniyalı İsgəndərin əxz etdiyi əsas ideya - "təbiətən azad" ellinlərin "təbiətən qul" barbarlardan üstünlüyü - onun işğalçılığına fatehlik bəraəti verir.

* * *

Lao-tszıya qulaq assaydı, indikindən kəmiyyətcə on dəfə az, keyfiyyətcə yüz dəfə artıq olardı Çin.

* * *

Daos filosofu Çjuan-tszı: "Kainat bizimlə birlikdə doğulub". - Bəli, biz uşaqlıqdan bir yerdə böyümüş, bir yerdə oynamışıq. İndi ən yaxşı oyuncaqlarımız teleskoplar, kosmik aparatlardır.

* * *

Meditasiya: Təkin Varlığı, Varlığın Təki duyub-dərk etmək məqamı, gerçək Vəhdət!

* * *

Yoqa - insanın Budda potensiyasını hərəkət etdirən daxili kosmik güc.

* * *

Toxum - cücərmək üçün torpaq, ideya - yetişmək üçün dərinlik axtarır. Ona görə müdrik öz hücrəsinə - tənhalığa çəkilir.

* * *

Mövqe: "Dünya mənim maraqlarımı əks etdirmir. Ancaq mən onu qəbul edirəm".

* * *

Freydin dayandığı yolayrıcında görmədiyi qütb - insan poeziyası.

* * *

Tikanını iynəsinə çevirə bilməyən mədəniyyət nizəsinə taxılır.

* * *

Siz Nyutonu qəbul etməyə bilərsiniz, onun cazibə qanununu isə yox.

* * *

Fəlsəfə: bəzən onun səsi - fateh ola biləcək körpə ideyaların dəfn olunduğu qəbiristanlıqdan, ya da bic ideyaların taxta çıxdığı səltənətdən gəlir.

* * *

Əvvəllər insan informasiyanı loxmalayıb yeyirdi, indi informasiya insanı sıyıdıb yeyir.

* * *

Astroloqlar və futuroloqlar: onlar çox zaman meyvələrini bir-birinin bağından dərirlər.

* * *

Varlığı duyğularımızla oxuyaq: elmin nailiyyətləri bizim instinktlərimizi korşaltmaq yox, cilalamaq üçündür.

* * *

İlahi qüdrətin kamilliyinə bax ki, özünün kamil olmadığını və kamilliyə çatmağın zərurət olduğunu dərk edən varlıq yaradıb.

* * *

Yaradıcı insan: o, potensialından iki addım öndə, fantaziyasından bir addım geridə irəliləyir.

* * *

Klassiklər - bizim ən qabaqcıl müasirlərimiz.

* * *

Ustadın yarımçıq cümləsi də tam fikrin ifadəsidir.

* * *

Sözün dilini bilirsinizmi?!

* * *

Parlaq məntiq gözəl mətnin düzən landşaftının dağları tək ucalır.

* * *

Həyatı - ideyası və yaradıcılığının məhsulu olan çox az adam var.

* * *

Böyük ədəbiyyatın əsas sirri: o, həyatı tarixə, tarixi həyata, onların ikisini də birlikdə İnsanlığın Salnaməsinə çevirə bilir.

* * *

Ədəbiyyat qaçıb içində gizlənmiş adamı oradan üryan dartıb çıxarır və özünə təqdim edir: "Bu - Sənsən!"

* * *

Şair - substansiya ilə nəfəs alan insan.

* * *

İdeyanın gücü ondadır ki, inkişaf etdikcə nüvəsi bərkiyir.

* * *

Dahilərin bəziləri uzun ömrünə səpələnib, bəziləri qısa ömrünə təpələnib.

* * *

Natiqin məharəti ondadır ki, arqumentlərini həm desant, həm ağır artilleriya, həm də piyadaların əlbəyaxa döyüşlərində hərəkət etdirə bilir.

* * *

Roman-aforizm: müdrik həyatın özü.

* * *

İdeyalar bəzən ona görə dərinə ötürülür ki, onların oradan çıxarılmasından da həzz alınsın.

* * *

Yumor böyüyüb satira olmasa, cırtdan qalacaq.

* * *

Onda şairə məxsus bütün qəribəliklər vardı: şairlikdən başqa.

* * *

Bəziləri hətta yaxşı yaradılmış əsərləri ona görə bəyənmirlər ki, özlərinin daha yüksək zövqə malik olduqlarını nümayiş etdirsinlər.

* * *

Professionallığın yırtıqları arasından istedadsızlıq aydınca görünür.

* * *

Mən səni tənqid eləyirəm, yəni bir az soyuduram ki, yazıqsan - çürüməyəsən.

* * *

İstedadla atılmış obrazlı böhtanı ədəbi janrlar sırasına daxil etmək olar.

* * *

O ölkədə ki, poeziya qıtlığı var, orada şair balalayır.

* * *

Sarkazm və ironiya dolu aforizmlər - böyük fikirlərin doğulmasının zəruri sancılarıdır.

* * *

Güclü səs və güclü ideya yalnız sərt maneələrə dəyib qayıda bildikdə əks-sədaya çevrilir.

* * *

"Yumor hissi" olur. Bəs satira hissi?! O hiss güldürəndə yox, titrədəndə üzə çıxır.

* * *

Tamamilə tükənmiş yazıçı: indi o, bir qaşıq məhəbbətini də arvadına obrazlı ifadə edə bilmir.

* * *

"Poetik humanizm": yazıçı insanları həyatda yox, əsərlərində öldürür.

* * *

Yaradıcı insanın yazmadığı zaman - yazacağı zamanın postamentidir.

* * *

Ədəbiyyat hansı janrda doğulursa-doğulsun, damarlarında poeziyanın qanı axır.

* * *

Bütün Şərq ruhunu varlığına hopdurmuş İran çalğı alətlərində SƏS ideal məqamına çatır: o - hər tərəfindən görünüb-duyulan ilahi bir səda!

* * *

Müdriklik - dərk etdiklərin tərəfdən dərk etmədiklərin tərəfə aramsız aşıb-döndüyün zirvə.

* * *

Üçmərtəbəli əsərlərə daxil olan oxucuların çoxu onların elə birinci mərtəbəsində gəzişir.

* * *

Erkək tənqid mədəniyyətini zərif, xanımxatın estetik ideallar yaradır.

* * *

Dahi abidəsinin postamenti - onun təqlidçiləridir.

* * *

Tənhalıq - yaradıcı insanın Vətəni.

* * *

Monoloqun gücü - daxili dialoqun gerginliyində və dərinliyindədir.

* * *

Formalizm qəlibə sığsa da, ölçü tanımır.

* * *

Üslub relyefi o zaman əmələ gəlir ki, biz yazarkən düşüncəmizin endogen proseslərində dərinlikləri üzə çıxarmağa, ekzogen proseslərində isə üzdəkiləri dərinə ötürməyə çalışırıq.

* * *

İncəsənət - həyatın zərif və həyalı bir çevrəsi olduğu üçün böyürdən oraya daha çox vulqarlar və sırtıqlar soxulmaq fürsətini qapır.

* * *

Çox zaman kitaba ön sözü korun əlinə əsa vermək üçün yazırlar.

* * *

Musiqini izah etmək istəyirsən, deməli, ətri təsvir etmək xəyalındasan.

* * *

Bəlağətdən qaç ki, gerçək pafosa çatasan.

* * *

Yazarlar var ki, evlənincəyədək şeir, evləndən sonra nəsr, boşandıqda dram yazır.

* * *

Fikir yoxsulluğu, sən nə qədər təfəkkürsüzü varlandırıbsan!

* * *

Ardıcılları yaradıcının əzaları olmaqdan irəli gedə bilmirlər.

* * *

Seçkin üslubları - dil mədəniyyətinin aristokratiyasını yaradır.

* * *

Mütəfəkkirin Taqor biçiminə Qərbdə, Nitsşe biçiminə isə Şərqdə rast gəlmək mümkün deyil.

* * *

Ustadın qələmi kərtənkələnin yapışqanlı dili tək hikmətli sözləri yaşıl çəyirtkələr içərisindən seçib də tutur.

* * *

Tənqid və ədəbiyyatşünaslıqda mif ədəbiyyatın özündəkindən az deyil.

* * *

Bəzən fikir cümlənin sonuna çatmamış... ölür.

* * *

Universitet-kitabların seçimi: oxu təcrübəsində qazanılan ən yüksək səviyyə.

* * *

Postmodernizm əsrin qırıntılarından epoxa düzəldə bildimi?!

* * *

Postmodern düşüncə daha "əsər" demir, "mətn" deyir: çünki stixiyası tələin edir ki, o, yaradıcı təfəkkürün deyil, qurucu intellektin məhsulu ilə işləsin.

* * *

Pərdə qalxır: səhnədə heç kim yoxdur. - Bax, budur postmodernizm.

* * *

Özünü şumlamasan, yaradıcılıq torpağın bar verməyəcək.

* * *

Gərək söz qəlbə qaranquş yuvasına qonan kimi gəlsin...

* * *

Qəlbcə - Qələmcə lüğət.

* * *

Hər seçmə əsərlə janr bir o qədər də dərinləşir.

* * *

Alınma sözlər - legionerlər hər zaman və gözlənilmədən doğma dil ordusuna xəyanət edə bilər.

* * *

Rübai yazan şairin tabutunu roman yazan nasirlər qaldıra bilmir.

* * *

Dünyanın ən yüksək səviyyəli əsərlərini yaratmış insanlar dünyanın ən yüksək zövqünü almış insanlardır.

* * *

Təkcə "Kitabi Dədə Qorqud" və "Koroğlu" eposları göstərir ki, biz düşüncə və mənəviyyatca necə sağlam xalq olmuşuq.

* * *

Yaradıcı insan yaşa dolduqca, ömrün getdikcə tükənməsindən kədərlənmir: çünki Ölümə yox, Əbədiyyətə yaxınlaşır.

* * *

Dostoyevski səni vadar edir ki, hətta onunla çarpışa-çarpışa həqiqətə doğru gedəsən.

* * *

Taqor təbiət tək ürəyində danışır: onun səssizcə dedikləri daha patetikdir. Taqor Bayrondan daha romantik, Mayakovskidən daha inqilabidir.

* * *

Hər sətrində həyat çırpınan Nazim Hikmət poeziyası: titrədikcə, üşüdükcə qızınırsan.

* * *

Hər bir günün səhərindən axşamınacan mükəmməl və bənzərsiz tamlığı var: əsər də belə olmalıdır.

* * *

Köhnəliyi sonacan soyunub lüt qalan nihilist yenilik onu bir daha geyinməyə məcbur qalır, - fəqət bu dəfə daha cındır formasını.

* * *

Hər bir sözün içində onun potensial ironiyası var ki, hadisələrə münasibətdən asılı olaraq çalxanıb üzə çıxır.

* * *

Dünyada mənasızlıq artdıqca, insanlar daha çox danışırlar.

* * *

Aforizmin bir gözəlliyi də odur ki, burada zibilləməyə yer qalmır.

* * *

Yazıçı-bağbanın qələm-ağacının barı - meyvə-kitablar.

* * *

Yaradıcı insan - gözəlliyin əsgəri.

* * *

Axıb gedən zamandan Epoxa yaratmaq - bunu Dahi bacarır.

* * *

Saralan əlyazmalar var ki, bir kəlməsi də solmayıb.

* * *

Aforizmlər - bəşər yolunun sərt döngələrində semiotik nişanlar.

* * *

Qələm - sözün minarəsi.